## T.H.Kərimlinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinə görə Teymur Həşim oğlu Kərimli "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə

Zati-aliləri!
Əziz Prezidentimiz!
Möhtərəm Ali Baş Komandan!

Minillərdən bəri şanlı yol keçmiş Azərbaycan tarixinin ən parlaq səhifələrini yazdığınız, cənnət Qarabağımızı dünya savaş tarixində misli görünməmiş ildırım sürətilə qanı düşməndən azad edərək dövlət suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdiyiniz, azad olunmuş torpaqlarımızda möhtəşəm quruculuq işləri apardığınız taleyüklü bir dövrdə humanitar elmimizə, ədəbiyyatşünaslığımıza verdiyiniz yüksək diqqətin və qayğının əlaməti kimi mənə göstərdiyiniz yüksək etimada görə Zati-alinizə ən dərin və içdən gələn səmimi təşəkkürümü bildirirəm.

Bunu da özümə ikiqat şərəf bilirəm ki, bu yüksək dövlət təltifinə məhz bütün şüurlu həyatımın sıx bağlı olduğu Ulu Öndər Heydər Əliyev İlində layiq görülmüşəm. Hakimiyyətə gəlməsi ilə Azərbaycana ədalət, rifah, inkişaf gətirən Ümummilli Liderin, dahi klassiklərimizin öz ölməz əsərlərində tərənnüm etdiyi ədalətli hökmdar obrazının gerçək dövlətçiliyimizdəki canlı təcəssümü olan Heydər Əliyevin diqqəti və qayğısı sayəsində ucqar dağ kəndindən gəlmiş adi bir şagirdin 1970-ci ildə Bakıda qızıl medala layiq görülməsini Heydər Əliyevin bir dövlət başçısı kimi misilsiz ədalətinin təntənəsi sayıram.

Çağdaş müstəqil Azərbaycan Respublikasının qurucusu olan Heydər Əliyevin Vətən və millət yolunda başladığı möhtəşəm işlərinin layiqli davamçısı olan Zati-alinizin diqqəti və qayğısı sayəsində 2010-cu ildə müstəqil Azərbaycan Respublikasının ilk Dövlət Mükafatının laureatlarından biri olmaq və həmin mükafatı Sizin əlinizdən qəbul etmək də mənim üçün böyük şərəf və iftixar qaynağıdır.

Bu gün Sizin yüksək etimadınız sayəsində müstəqil Vətənimizin ən zəngin xəzinələrindən birinin toplandığı Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda milli əlyazma sərvətlərimizin qorunması və tədqiqi sahəsində çalışmaq mənim üçün ali məsuliyyət, şərəf və iftixardır. Bunu da qeyd etmək istərdim ki, 12 mindən artıq qiymətli əlyazmasının toplandığı xəzinəmizin ən qiymətli eksponatları sırasında Ulu Öndərin hədiyyə etdiyi "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin yüksək keyfiyyətli surəti və Sizin bağışladığınız dahi şairimiz Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının Daşkənd nüsxəsi də yer almaqdadır.

Əziz Prezidentimiz!

Təkcə müstəqil Respublikamızda deyil, bütün dünyada nasizmin, revanşizmin, faşizmin, separatizmin kökünün kəsilməsi, sülhün və ədalətin təntənəsi, dövlət müstəqilliyimizin inkişaf etdirilməsi yollarında atdığınız möhtəşəm və qətiyyətli addımlar nəticəsində uzun onillərdən bəri həsrətlə gözlədiyimiz ərazi bütövlüyümüzün tam və dönməz şəkildə bərpa edildiyi Vətənimizdə fundamental elmin inkişafına göstərdiyiniz yüksək diqqət və qayğını bir daha alqışlamaqla, qüdrətli dövlət rəhbəri və Müzəffər Ali Baş Komandan kimi Sizə və dövrənizdə yumruq kimi birləşmiş bütün xalqımıza yeni erada - postsavaş erasında can sağlığı, könül xoşluğu, sülh, əmin-amanlıq, bolluq və tərəqqi arzulayıram!

Sözümü Ulu Öndərimiz Heydər Əliyevin doğum gününə həsr etdiyim şeirlə bitirmək istəyirəm:

*Nə gözəl gündü bu gün, yurduma Heydər doğulub!*
*Bir qədim ər ocağından yeni bir ər doğulub!*

*Gün kimi şölə saçıbdır bir elə, bir obaya,*
*Qəlblərin sevgilisi, dillərə əzbər doğulub!*

*Düşmənin xərməninə çınqı kimi qorxu salıb,*
*Vətənə şanlı oğul, xalqıma rəhbər doğulub!*

*Göyə qalxıbdır o gün hay dığanın hay-harayı,*
*Düşmənin çaş gözünə bir iti neştər doğulub!*

*Neçə müddət ulu öndər sorağında dolaşan*
*Qəhrəman millətimə alp Ulu Öndər doğulub!*

*Saldığı yolla gedir millətimiz zirvələrə,*
*Şaninə Öndərimin şanlı əsərlər doğulub!*

*Verdi özgürlüyün İlhamlı zəfər müjdəsini,*
*Bu nəsil tariximə çünki müzəffər doğulub!*

*Teymurun bilgisi vardır ki, bəşər tarixinə*
*Ulu Öndərtək az-az müdrik ərənlər doğulub!*

Dərin hörmət və böyük minnətdarlıq duyğusu ilə,

***Teymur KƏRİMLİ,***
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun direktoru, akademik*

*04 oktyabr 2023-cü il*